# Qəbələnin incisi–Beynəlxalq Hava Limanı genişlənir

Qəbələnin inciləri artıq xeyli çoxdur. Bu incilər son 10-12 ilin bəhrələridir. Onların sırasında «Qafqaz resort», «Qafqaz» riverside, «Qafqaz» sport, «Simerana», «Yeddi gözəl» otelləri, Heydər Əliyev, «Qəbələnd», Zərifə Əliyeva parkları, «Fitnes», Qəmərvan, Yengicə istirahət və sağlamlıq mərkəzləri, 7-9 mərtəbəli yaşayış kompleksləri, müasir tipli yeni təhsil ocaqları, idman kompleksləri, 2011-ci ildə istifadəyə verilmiş 4 mərtəbəli Qəbələ Beynəlxalq Hava Limanı, bu il istifadəyə verilmiş mədəniyyət mərkəzi və digər obyektlər daxildir. Bu obyektlər arasında Beynəlxalq Hava Limanı isə Qəbələ və qəbələlilər, ətraf bölgələr üçün xüsusi əhəmiyyət kəsb edir. Limanın terminalı 27 metr eni, 75 metr uzunluğu olan bir ərazidə tikilmişdir. Yerdən qülləsinədək hündürlüyü 24, uçuş-enmə zolağının eni 60, uzunluğu 3600 metrdir. Bu zolaq ən müasir, çoxyerli sərnişin təyyarələrinin, həmçinin ən ağır yük təyyarələrinin enməsi və uçuşu üçün davamlı asfalt-beton örtüklə tikilmişdir.

Liman hazırda bütün sutqa ərzində işləyir. Burada sərnişinlər üçün milli dekorasiyalarla bəzədilmiş və müasir avadanlıqa təchiz olunmuş gözləmə salonu, ana və uşaq otağı, kömrükxana, bufet-çayxana, digər xidmət sahələri vardır.

Ötən ilin noyabr ayından Moskva—Qəbələ—Moskva reysi açılmışdır. Hazırda həftənin 3 günündə 160 nəfər tutumu olan «Aerobus» və «Boinq» tipli təyyarələr tərtib olunmuş qrafiklə uçuşlarını davam etdirirlər. Lakin bu uçuşların həftənin 6 günündə (bazar ertəsi müstəsna olmaqla) təmin olunması nəzərdə tutulur. Bununla yanaşı beynəlxalq tədbirlər zamanı limana xüsusi təyinatlı reyslər də olur. Yaxın zamanlarda isə Sankt-Peterburq, Krasnodar şəhərlərinə, ümumiyyətlə bir sıra MDB ölkələrinə, Türkiyə Respublikasına da reyslər planlaşdırılır.




Hava limanının direktoru Çingiz Süleymanlı ilə söhbət zamanı qeyd etdi ki, Qəbələ Beynəlxalq Hava limanının uğurlu gələcəyi vardır. Hazırda respublikanın bu dilbər guşəsi bir çox beynəlxalq tədbirlərə ev sahibliyi edir. Belə tədbirlərin sayı ildən-ilə artır. Artıq inamla demək olar ki, Qəbələnin coğrafi mövqeyi, təbii gözəlliyi, insanların mehribançılığı, burada davam etməkdə olan sosial-iqtisadi inkişaf bir çox ölkələrin maraq dairəsinə çevrilməkdədir. Əlbəttə, Qəbələ hələ çox-çox qədimlərdə də Şərq və Qərb arasında tanınmış bir məkan. hətta 900 ilə qədər qədim Alban dövlətinin paytaxt şəhəri olmuşdur. Qədim İpək yolu da buradan keçmişdir. Ataların gözəl bir məsəli var: «Su gələn arxa bir də gəlir». Deyəsən bu «suyun» gəlməsi üçün ilk şırımlar açılmaqdadır. İndi yaxın-uzaq ölkələrdən Azərbaycana, o cümlədən Qəbələyə gələnlər qısa bir zaman kəsiyində əldə edilən uğurlar qarşısında öz heyrətlərini gizlədə bilmirlər. Bəli, bütün bunlar limanın böyük gələcəyindən xəbər verir. Odur ki, bir neçə aydır terminalın genişləndirilməsinə başlanılmışdır.

Limanla tanışlıq zamanı aydın oldu ki, istifadə olunan terminalın uzunluğu isə 75 metr, tikilməkdə olan yeni terminalın uzunluğu 48 metrdir. Terminalın bu hissəsi sərnişinlərin getmə, yeni ucuşa hazırlıq terminalı kimi nəzərdə tutulur. Artıq hər iki mərtəbənin beton dirəkləri qurulub qurtarmış, daxili arakəsmələrin və dam örtüyünün tikintisinə başlanmışdır. Tikinti başa çatdıqda burada sərnişinlərin hər cür rahatlığı üçün onlara xidmət olunması nəzərdə tutulur.

Bu terminaldan sonra gələcəkdə yük terminalı da tikiləcəkdir.

Qeyd edək ki, limanın ərazisi bütövlükdə 450 hektardır. Perimetri isə 17 kilometrdir. Ərazidə 15 min ədəddən çox müxtəlif dekorativ ağaclar və gül kolları əkilmişdir. Ətraf kol-kosdan, daşdan, aprtıq tör-töküntüdən təmizlənmiş, hər yerdə səliqə-sahman yaradılmışdır.

Hazırda burada 200 nəfərlik daimi və mövsümi iş yeri açılmışdır. Bu iş yerlərinin əksəriyyəti daimi iş yeridir.

Hava Limanını Qəbələ şəhəri ilə birləşdirən 22 kilometrlik 2 gedişli və 2 gəlişli müasir magistral avtomobil yolunun tikintisi, gecələr işıqlandırılması, yol nişanlarının vurulması işləri də başa çatmışdır. Yol kənarlarında və işıqlandırma zolaqlarında son abadlaşdırma işləri aparılır. Dünya standartlarına cavab verən hava limanı, magistral yol və müasir şəhərsalma tədbirləri həqiqətən bir daha bizdə inam yaradır ki, Qəbələnin çox uğurlu gələcəyi vardır. Bu gözəl arzunun, inamlı və qətiyyətli gedişin möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında həqiqətə çevrilməsi, əlbəttə, çox uzaqda deyildir...

**Nadir ATAKİŞİYEV.**

# Narkomaniyaya qarşı mübarizə hamının borcudur

Hər il iyun ayının 26-da dünyanın əksər ölkələrində Narkomaniyaya və Narkobiznesə Qarşı Mübarizə günü kimi qeyd edilir. Bəşəriyyət üçün böyük bəla olan narkomaniya müasir dövrümüzdə bütün dünyada geniş yayılmışdı. Bu, elə bir bəladır ki, onunla mübarizə etmək bir o qədər asan proses deyil. Narkotik maddə alverçiləri pul qazanmaq naminə insanları ölümə aparan bu pis vərdişə alışdırırlar.

Məlum məsələdir ki, son zamanlar narkotik maddələr müxtəlif çeşidlərdə daha çox yayılmışdır. Bu çeşidlər sırasına daha çox yayılanları isə xaşxaş, tiryək, marixuana, heroin, kakoindir. Araşdırmalar göstərir ki, son illər kimyəvi laboratoriyalarda hazırlanan yeni sintetik narkotik maddələr meydana gəlmişdir. Bunlar xüsusilə insan orqanizmi üçün daha təhlükəlidir. Bu narkotik maddələr birinci dəfədən adamı özünə alışdıra bilir. Narkotik maddələri qəbul edən insan fiziki qüvvəsini də itirir. Eyni zamanda narkomaniya keçici xəstəliklərin sürətlə yayılmasına səbəb olur. Narkomanlar arasında QİÇS və başqa xəstəliklərə tutulmuş insanlar çoxdur. Bundan əlavə narkotik maddə qəbul edən insanlar öz fiziki qüvvəsini itirməklə yanaşı, danışmaq və müxtəlif əşyalardan istifadə etmək imkanlarından məhrum olur. Bu vəziyyət illərlə davam edə bilər.

Narkotik maddələrlə qazanc əldə edən cinayətkarlar üçün daha çox adamı “iynəyə oturtmaq” daha çox gəncləri narkomaniyaya sövq etmək sərfəli işdir.

Nəyə görə müasir dünyamızda narkomaniya bu qədər geniş yayıla bilmişdir? 1960-cı illərdə “Gənclik inqilabı” adlanan dövrdə gənc sənət adamları arasında narkotik maddələrin qəbulu dəbə düşmüş, bu, hətta özünəməxsus həyat tərzinə çevrilmişdir. Onlar bunu ictimaiyyətdən gizlətmir, bəzən sənət uğurlarını narkotik maddələrin qəbulu ilə əlaqələndirirlər. Bu sənətçilərin pərəstişkarları onların həyat tərzini təqlid edərək narkotik maddə qəbul edirlər. Bu nəsildən olan bir çoxları belə məst olmaqla günlərini, həyatlarını başa vururlar. Tanınmış adamların arasında da narkomaniyanın qurbanları olmuşdur.

Narkotik maddələrin gənc nəsillər arasında yayılması təhlükəsini nəzərə alaraq bir çox ölkələr “Narkotiksiz gələcək naminə” milli proqramlar qəbul edirlər. Buraya təhsil ocaqları, hüquq-mühafizə orqanlarında, təşkilatlarda narkomaniyanın ziyanı haqqında maarifləndirmə kompaniyaları daxildir.

Yaxşı haldır ki, ölkənin bəzi bölgələri ilə müqayisədə Qəbələdə narkomaniya alverçilərinin, narkomaniya aludəçilərinin sayı yox dərəcəsindədir. Çünki, hüquq-mühafizə orqanlarının əməkdaşları, səhiyyə işçiləri və ictimaiyyətin nümayəndələri kütlələr arasında narkomaniyanın təhlükələri və onun yaratdığı fəsadlar barəsində söhbətlər aparır, əhalini maarifləndirir. Xatırlatmaq lazımdır ki, narkomaniyaya qarşı mübarizə sadalanan təşkilatlarla bərabər ümumxalq işidir.

Narkomaniya ilə bağlı problemləri daim ictimaiyyətin nəzarəti altında saxlamaq məqsədilə BMT iyun ayının 26-nı Narkomaniyaya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə günü elan etmişdir.

**Aslan CƏLİLOV.**